tənzimlənməsi dövlətin müstəsna səlahiyyətindədir və innovasiya prosesləri sahəsində beynəlxalq münasibətlərin tənzimlənməsi də əsasən dövlət tərəfindən həyata keçirilir. Bazar iqtisadiyyatı və rəqabət mühiti sahibkarlıq subyektlərindən istehsal fəaliyyətlərinə daim yeni innovativ elementlər daxil etməyi tələb edir.

Milli iqtisadiyyatda innovasiyaya ehtiyac durmadan artır, lakin sahibkarlıq subyektləri müxtəlif fəaliyyət dərəcələri ilə innovasiya fəaliyyətinin maliyyə təminatında iştirak edirlər. Azərbaycanda innovasiya fəaliyyətini maliyyələşdirmək üçün investisiyaların əsas təchizatçısı hələ də dövlətdir. İqtisadiyyatın modernləşdirilməsinin hazırkı mərhələsi innovativ məhsulların yaradıcılarının ehtiyacları üçün investisiyaların səfərbər edilməsinin keyfiyyətcə yeni mexanizmini və milli innovasiya sisteminin subyektlərinin maliyyə təminatı metodologiyasına yenidən baxılmasını tələb edir. İnnovativ iqtisadi inkişaf yolunda innovativ tipli iqtisadiyyatın qurulması məqsədinə nail olmaq üçün təkcə elmi-tədqiqat və təkmilləşdirmə ilə məşğul olan qurumların mövcudluğu kifayət deyil. İnnovasiya fəaliyyəti üçün kifayət qədər güclü maliyyə bazası lazımdır ki, bu da dövlət maliyyələşdirməsindən əlavə, fəaliyyəti innovativ elementlərin vaxtında istehsala tətbiqindən birbaşa asılı olan korporativ və özəl investorların maliyyə dəstəyi ilə doldurulmalıdır.

***Ədəbiyyat:***

1. Qasımov F.H., Əliyev T.N., Nəcəfov Z.M. Milli innovasiya sisteminin təşkili və idarə edilməsi. Bakı: Elm və təhsil, 2013.

2. Abbaszadə M. Azərbaycanda müasir innovasiya siyasətinin ölkənin iqtisadi inkişafında rolu. Elm və İnnovativ Texnologiyalar Jurnalı, № 14, 2020.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin rəsmi internet səhifəsi. URL: https://www.economy.gov.az/

## DÖVLƏTİN İNVESTİSİYA VƏ İNNOVASİYA SİYASƏTİNİN FORMALAŞMASININ MÜASİR İSTİQAMƏTLƏRİ

*Mustafayeva G.X.*
*Elmi rəhbər: Səmədova O.M., dosent, i.f.d.*
*Mingəçevir Dövlət Universiteti*

Müasir şəraitdə dövlət investisiya siyasəti kapital qoyuluşlarının əhəmiyyətli hissəsinin özünümaliyyələşdirmə prinsiplərinə, maddi-texniki resurslar bazarlarının mexanizmlərinin və infrastrukturunun, investisiya prosesinin iştirakçıları arasında səmərli münasibətlər sistemlərinin inkişafı prinsiplərinə əsaslanmalıdır.

Bütövlükdə dövlətin investisiya və iqtisadi təhlükəsizliyinin təmin edilməsi baxımından dövlət investisiya siyasətinin səmərəliliyinin artırılması aşağıdakı prinsiplərin həyata keçirilməsi ilə mümkündür.

- investisiyaların qeyri-kommersiya risklərindən sığortalanması üçün şəraitin yaradılması.
- investisiya prosesinin qeyri-mərkəzləşdirilməsi;
- müəssisələrin investisiya layihələrinin maliyyələşdirilməsində daxili

mənbələrinin (xüsusi vəsaitlərin) rolunun artırılması;

- investisiya proqramlarının və layihələrinin dövlət-özəl qarışıq maliyyələşdirmə təcrübəsinin əhəmiyyətli dərəcədə genişləndirilməsi;
- Azərbyacan Respublikasının Sahibkarlığın İnkişafı Fondunun hesabına bütün səviyyələrdə dövlət büdcələrindən kreditlərin verilməsinin artırılması;
- yerli büdcə vəsaitlərinin məqsədli xərclənməsinə dövlət nəzarətinin gücləndirilməsi;
- xarici investisiyaların cəlb edilməsinin stimullaşdırılması məqsədilə tədbirlərin artırılması və s.

Dövlət investisiya siyasətində prioritetlərin işlənib hazırlanması problemi hökumətin fəaliyyətinin ən mühüm sahələrindən biri olmalıdır və iqtisadiyyatın real sektorunun aktivləşdirilməsinə yönəlməlidir. Odur ki, dövlət resurslarının məhdudluğunu nəzərə alaraq, iqtisadiyyatın real sektorunda ilk növbədə, iqtisadiyyatın və istehsalın dövlətin dəstəyinin təmin edilməli olduğu sahələrini müəyyən etmək lazımdır.

İnvestisiya proqramlarına dövlət dəstəyi ilə bağlı qərarlar qəbul edilərkən bazara daxil olacaq həmin məhsul və ya xidmət növlərinə səmərəli tələbatın artım perspektivləri də nəzərə alınmalıdır.

Regional iqtisadiyyatının prioritet sahələri üçün regional investisiya siyasətinin həyata keçirilməsi mühüm istiqamətlər sırasında olmalıdır.

Dövlət innovasiya siyasəti yerli məhsulların rəqabət qabiliyyətinin artırılması, davamlı iqtisadi artımın təmin edilməsi, əhalinin həyat səviyyəsinin və keyfiyyətinin yüksəldilməsi, müdafiə, texnoloji və iqtisadi təhlükəsizliyin təmin edilməsi məqsədilə innovasiya fəaliyyətinin prioritetliyinin tanınması əsasında formalaşmalı və həyata keçirilməlidir.

Dövlətin innovasiya siyasətinin hazırlanması zamanı aşağıdakı məsələlər diqqət mərkəzində olmalıdır:

- güclü elmi potensiala arxalanma;
- elmi siyasətin formalaşdırılması və həyata keçirilməsində aşkarlıq və şəffaflıq;
- fundamental elmi tədqiqatların inkişafının stimullaşdırılması;
- elm və texnologiya sahəsində sağlam rəqabət və sahibkarlıq üçün şərait yaratmaq, innovasiyaları stimullaşdırmaq və dəstəkləmək;
- elm və təhsilin inteqrasiyası, bütün səviyyələrdə ixtisaslı elmi kadrların hərtərəfli hazırlanmasının inkişafı;
- müasir elmi nailiyyətlərin Azərbaycanın gələcəyi üçün əhəmiyyəti baxımından təbliği.

İnnovasiya siyasətinin əsasları ölkədə real iqtisadi, sosial və siyasi vəziyyətə adekvat olan qanunvericilik aktlarının məcmusunun qəbulu ilə qoyulur. Qanunvericilik innovasiya və elmi-texniki fəaliyyətin əsas tənzimləyicisidir.

Hazırda Azərbaycan Respublikası üçün innovasiya siyasətinin təkmilləşdirilmiş istiqamətləri kimi aşağıdakıları qeyd edə bilərik:

- innovasiya proseslərinin, o cümlədən əqli mülkiyyətin hüquqi müdafiəsinin həyata keçirilməsinin qanunvericilik təminatının təkmilləşdirilməsi;
- vergi güzəştləri və tənzimləyicilər sistemi vasitəsilə müxtəlif mülkiyyət

formalı müəssisələrdə innovasiya fəaliyyətinin iqtisadi stimullaşdırılmasının inkişafı;

- innovasiya infrastrukturunun, o cümlədən elmi, texniki və innovativ proseslərin informasiya təminatının formalaşdırılması;
- kiçik innovativ müəssisələrin dəstəklənməsi üçün əlverişli mühitin yaradılması;
- innovasiya sahəsində beynəlxalq əməkdaşlığın inkişafı;
- innovasiya fəaliyyətinin sosial statusunun artırılması və s.

Dövlət innovasiya siyasətinin əsas müddəalarını həyata keçirmək üçün müəssisələrdə innovasiya proseslərinin dəstəklənməsi üçün fondlar yaradılmalıdır. Beləliklə, sənaye istehsalının davamlı inkişafını təmin etmək üçün dəqiq dövlət innovasiya və investisiya siyasəti formalaşmalıdır.

***Ədəbiyyat:***

1. "İnvestisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 22 iyun 2022-ci il, № 551-VIQ
2. Əyyubov V.S., Tağıyev A.M. Milli iqtisadiyyatın tənzimlənməsi. Bakı: Avropa, 2014, 350 səh.
3. İbrahimov İ.H., Kərimov K.S. Sənayedə investisiya və innovasiya fəaliyyəti. Bakı, Bakı Biznes Universiteti, 2017, 254 səh.
4. Qasımov F.H., Əliyev T.N., Nəcəfov Z.M. Milli innovasiya sisteminin təşkili və idarə edilməsi. Bakı: Elm və təhsil, 2013
5. Azərbaycan Respublikasının Prezdentinin rəsmi internet səhifəsi. URL: https://president.az/
6. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin rəsmi internet səhifəsi. URL: https://www.economy.gov.az/ -

## АВТОКӨЛІК САЛАСЫН ДАМЫТУДАҒЫ МЕМЛЕКЕТТІҢ РӨЛІ

*Қырғызбай Перизат Әбдіәкімқызы, 1 курс, Экономика,*
*Ғылыми жетекші: Карипова М.Р., магистр, аға оқытушы*
*Л.Б.Гончаров атындағы ҚазАЖИ (Алматы қаласы)*

Көлік кешені Қазақстан экономикасының маңызды құрамдас бөлігі болып табылады, өйткені ол өңірлер, салалар, кәсіпорындар арасындағы материалдық тасымалдаушы болып табылады. Қазақстан Республикасының көлік кешеніне шаруашылықаралық және мемлекетаралық байланыстарды жүзеге асыруда аса маңызды рөл беріледі. Көлік кешені ел экономикасының "қанайналым жүйесімен" байланысты. Оның көмегімен қалалар ішінде де, халықаралық, ауданаралық және халықаралық қатынастарда да көптеген жүктер мен жолаушылар тасымалданады. Сенімді көлік байланыстары кез-келген аумақты өздерінен тыс тұтынуға арналған өнімді өндіруге мамандандырудың қажетті және міндетті шарты болып табылады.

Көліктің экономика саласы ретіндегі ерекшелігі-ол өзі өнім шығармайды, тек оны жасауға қатысады, өндірісті шикізатпен, материалдармен, жабдықтармен қамтамасыз етеді және дайын өнімді тұтынушыға жеткізеді.